Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Azad rayonlarda dövlətçilik, elm və mədəniyyət dəyərlərinin bərpası...

**Otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərimiz azad edildikdən sonra bu torpaqlarda quruculuq-bərpa işləri başlanıb. Bölgədə infrastruktur layihələri ilə yanaşı, tarixi və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, o cümlədən bərpası istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.**

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan edib. Bununla da Heydər Əliyev Fondu bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Fondun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunub. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib.

Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparılıb. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir.

Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Bölgədə aparılan quruculuq işlərinə töhfə vermək məqsədilə yeni dini və mədəniyyət obyektlərinin inşası da nəzərdə tutulur.

**Şuşa Xalça Muzeyi bərpa edilib**

Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib.

Qarabağ torpaqlarının Ermənistanın işğalına məruz qaldığı dövrdə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi.

Hazırda Şuşada yeni xalça ekspozisiyası təqdim olunur.

**Aparılan işlər zamanı tarixi mənbə və arxivlərdəki fotolardan istifadə edilib**

Yuxarı Gövhər Ağa məscidinin interyeri erməni vandalları




tərəfindən məhv edilib, minarələrinin dekoru zədələnib, örtükləri dağıdılıb. Məscidin birinci mərhələdə bərpası başa çatıb, ikinci mərhələ üzrə işlər aparılır. Bu mərhələdə məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Məscid ərazisində dağıdılmış mədrəsə də bərpa edilir. Aşağı Gövhər Ağa məscidində isə xarici ekspertlər qiymətləndirmə işləri aparıblar. Hazırda məsciddə bərpa işləri davam edir. Məscidlərin minarələri bərpa olunacaq, eləcə də dam və döşəmə örtükləri dəyişdiriləcək.

Şuşa şəhərində yerləşən malikanə tipli tarixi yaşayış evi olan Mehmandarovların malikanə kompleksi Azərbaycanın XVIII əsr mülki memarlığının ən maraqlı nümunələrindən biridir. Bu maddi-mədəniyyət tikilisi də erməni işğalı dövründə dağıntılara məruz qalıb. Artıq abidənin əvvəlki görkəmi özünə qaytarılıb. Aparılan işlər zamanı tarixi mənbə və arxivlərdəki fotolardan istifadə edilib. Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilib. Bulağın örtüyü əvvəlki vəziyyətinə gətirilib. Təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyası quraşdırılacaq. 2023-cü ilin sonlarında təmir-bərpa işlərinin başa çatdırılması nəzərdə tutulan bu malikanədə ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan evin ən təmtəraqlı otağı sayılan və bir çox hallarda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq, yemək və yataq otaqlarının yaradılması nəzərdə tutulur.

**Qazançı kilsəsinin də ilkin bədii-estetik görkəminə uyğun bərpa edilməsi nəzərdə tutulur**

Şuşada ilkin bərpa olunan binalardan biri də Qazançı kilsəsidir. Bütün digər tarix-mədəniyyət abidələrimiz kimi, Qazançı kilsəsinin də ilkin bədii-estetik görkəminə uyğun bərpa edilməsi nəzərdə tutulur. Bu, elmi-praktiki-tədqiqat fəaliyyəti olmaqla abidənin hərtərəfli təhlilini, memarlıq, tarixilik xüsusiyyətlərinin araşdırılmasını ehtiva edir. Hazırlanan bərpa layihəsi abidənin XIX əsrdəki ilkin-orijinal görkəminə qaytarılmasına imkan verir.

Əsas problemlərdən biri də işğaldan azad olunmuş ərazilərdə yeni tikinti işlərinin aparılmasından ibarətdir. Unutmaq olmaz ki, aparılan tikinti işləri tarixi irsin simasına, Arran (Qarabağ) memarlıq məktəbinə uyğunlaşdırılmaqla həyata keçirilməlidir. Nümunə olaraq Şuşa şəhərində Qazançı kilsəsi yaxınlığında yeni məscid binasını qeyd etmək lazımdır. Ölkə Prezidentinin qeyd etdiyi kimi, yeni tikililər tarixi simaya uyğun olaraq ətrafdakı abidələr ilə harmoniyada inşa olunmalıdır.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**